*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 30 sentyabr 2015-ci il № 74 (1990) | Qiyməti 25 qəpik


## Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə IV İslam Həmrəylik Oyunlarının Təşkilat Komitəsinin birinci iclası olub

***2017-ci ildə Bakıda keçiriləcək IV İslam Həmrəylik Oyunlarının Təşkilat Komitəsinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə sentyabrın 23-də birinci iclası olub.***

***Dövlətimizin başçısı iclasda çıxış edib.***



- 2017-ci ildə Bakıda IV İslam Həmrəylik Oyunları keçiriləcəkdir. Bu, böyük beynəlxalq tədbirdir. Həm dünya, həm İslam aləmi üçün çox önəmli idman yarışmasıdır. Bu Oyunların Azərbaycanda keçirilməsi bir daha onu göstərir ki, Azərbaycan dünya miqyasında çox böyük hörmətə malik olan bir ölkədir. Azərbaycanda bu günə qədər bütün mötəbər beynəlxalq tədbirlər ən yüksək səviyyədə keçirilmişdir. Eyni zamanda, biz bunu İslam aləminin Azərbaycana, onun inkişafına verdiyi yüksək dəyər kimi qiymətləndiririk və öz tərəfimizdən əlimizdən gələni edəcəyik ki, bu Oyunlar yüksək səviyyədə keçirilsin.

Bir neçə gün bundan əvvəl mənim Sərəncamımla Oyunların Təşkilat Komitəsi yaradılmışdır. Biz bu gün Təşkilat Komitəsinin birinci toplantısını keçiririk. Oyunların önəmini nəzərə alaraq, bu birinci toplantını mən özüm aparıram. Əminəm ki, bundan sonrakı dövrdə Təşkilat Komitəsi bütün vəzifələri uğurla icra edəcək və bu Oyunlar ən yüksək səviyyədə keçiriləcəkdir.

Təşkilat Komitəsinə rəhbərlik Mehriban Əliyevaya həvalə olunub. Həm "Eurovision" mahnı müsabiqəsinin Təşkilat Komitəsinə, eyni zamanda, Birinci Avropa Oyunlarının Təşkilat Komitəsinə Mehriban Əliyeva rəhbərlik etmişdir. Nəticələr də göz qabağındadır. Hər iki beynəlxalq tədbir ən yüksək səviyyədə keçirilmişdir. Həm "Eurovision" müsabiqəsində, həm Avropa Oyunlarının gedişatında bütün təşkilati məsələlər öz həllini tapıb və bu yarışmalarda iştirak etmiş bütün idmançılar və Azərbaycana gəlmiş qonaqlar bunu yüksək qiymətləndirmişlər.

Mən xüsusilə Birinci Avropa Oyunlarının nəticələrini qeyd etmək istəyirəm. Bu, birinci belə yarışma idi. Bu günə qədər Avropada qitə yarışları keçirilməmişdi. Əlbəttə ki, bu yarışın yüksək səviyyədə keçirilməsi bizim səylərimizdən asılı idi. Biz bu Oyunların standartlarını müəyyən etdik. Bu, ən yüksək standartlar idi. Həm qonaqlar, həm Azərbaycan vətəndaşları bir daha gördülər ki, Birinci Avropa Oyunları Yay Olimpiya Oyunları səviyyəsində keçirilmişdir. Məhz qarşıya belə məqsəd qoyulmuşdu. Baxmayaraq ki, bu Oyunların hazırlanmasında bizim cəmi 2 il yarım vaxtımız var idi. Həm yeni idman infrastrukturunun yaradılması, həm mövcud idman obyektlərinin təmiri, bütün təşkilati məsələlərin həlli ən yüksək səviyyədə həyata keçirilmişdir və şübhəsiz, bu işlərdə Təşkilat Komitəsinin xüsusi rolu və əməyi var idi.

Avropa Oyunları bizə imkan verdi ki, öz potensialımızı ortaya qoyaq. Azərbaycan Avropaya və bütün dünyaya bir daha göstərdi ki, Azərbaycan sürətli inkişaf dövrünü yaşayır, Azərbaycan dostluq, əməkdaşlıq məkanıdır, Azərbaycanda bütün xalqların, dinlərin nümayəndələri rahat bir ailə kimi yaşayır və biz bütün qonaqları qəbul etməyə hazırıq, buna qadirik. Azərbaycan xalqı öz qonaqpərvərliyini, öz tolerantlığını, qonaqlara olan hörmətini bir daha ifadə etdi. Eyni zamanda, bizim təşkilatçılıq qabiliyyətimiz də ən yüksək səviyyədə idi. Bu da ölkəmizin ümumi inkişaf potensialının göstəricisi kimi artıq qonaqlar tərəfindən yüksək qiymətləndirilmişdir.

Baxmayaraq ki, Avropa Oyunları ərəfəsində və Oyunlar zamanı Azərbaycana qarşı çox çirkin kampaniya aparılırdı. Bu kampaniya əlaqələndirilmiş şəkildə aparılırdı. Bəzi xarici dairələr Azərbaycanda gedən inkişafı ləkələmək, ölkəmizi gözdən salmaq, ölkəmiz haqqında həqiqətə uyğun olmayan rəy yaratmaq üçün sanki yarışa çıxmışdılar. Azərbaycan haqqında yalan, böhtan, uydurma informasiyalar xarici media orqanlarında da geniş yer almışdı. Əlbəttə, biz yaxşı başa düşürdük və bilirdik ki, bu, təsadüfi deyil. Bu, çox düşünülmüş, məqsədyönlü təşkil edilmiş qarayaxma, şər-böhtan kampaniyası idi. Bu kampaniyanı aparan və onu sifariş edən qüvvələr bir məqsədi güdürdü ki, Azərbaycanı gözdən salsınlar və Oyunlara ləkə vursunlar. Ancaq onların bütün səyləri Azərbaycanda alt-üst edildi. Ona görə ki, ölkəmizə, Oyunlara gəlmiş idmançılar, nümayəndə heyətlərinin üzvləri, qonaqlar Azərbaycan reallıqlarını öz gözləri ilə gördülər. Gördülər ki, Azərbaycan müasir, dinamik inkişaf edən, demokratik ölkədir. Azərbaycan multikulturalizmin mərkəzidir. Son illər ərzində Azərbaycanda quruculuq, abadlıq işləri o qədər sürətlə gedir ki, bu gün Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Gördülər ki, Azərbaycan gəncləri və bu Oyunlarda fəal iştirak etmiş könüllülər öz Vətənini sevirlər, öz Vətəni ilə fəxr edirlər. Fəxr edirlər ki, onlar Azərbaycan vətəndaşlarıdır. Gördülər ki, Azərbaycan idmançıları həm peşəkar, həm vətənpərvər idmançılardır.

Bu Oyunlar Azərbaycan dövlətinin təntənəsi idi. Bizə qarşı bu çirkin əməlləri sifariş və icra edən qüvvələr heç bir məqsədə nail ola bilməmişlər. Baxmayaraq ki, Oyunlar ərəfəsində Avropa Parlamenti anti-Azərbaycan qətnaməsi qəbul etməyə çalışırdı. Ancaq məqsədə çata bilməmişdir, o qətnamə qəbul edilməmişdir. Oyunların açılış günündə - iyunun 12-də Almaniya Bundestaqı Azərbaycanın əleyhinə yalan-böhtan üzərində qurulmuş çirkin bir qətnamə qəbul etmişdir. Onu da Azərbaycan xalqı və dövləti rədd etmişdir. Yəni, bütün bu səylər onu göstərir ki, biz hətta misli görünməmiş təzyiqlər şəraitində yolumuzdan dönmədik, Azərbaycan bir daha öz imkanlarını ortaya qoydu.

Əlbəttə, Oyunlardan sonra da bizə qarşı təzyiqlərin olacağını proqnozlaşdırırdıq. Çünki Azərbaycan öz müstəqil siyasətinə sadiqdir. Bu siyasət Azərbaycan xalqının milli maraqlarını hər şeydən üstün tutur. Azərbaycan heç bir xarici qüvvənin diktəsi ilə oturub-durmur, müstəqil siyasət aparır və sürətlə inkişaf edir, eyni zamanda, sübut edir ki, bu gün müsəlman aləmində dinamik, müasir, öz milli mənəvi dəyərlərinə sadiq, güclü bir dövlət vardır. Bu da bəzi xarici dairələrin stereotiplərinə, yaxud da ki, yaratdıqları stereotiplərə sığmır. Əfsuslar olsun ki, bu gün İslam aləmi daha çox münaqişələr zonası kimi təqdim edilir, islamofobiya meyilləri güclənir, İslam dininə qarşı təhqir-böhtan kampaniyası aparılır və görəndə ki, müsəlman aləmində belə gözəl, dinamik inkişaf edən, müasir ölkə var, əlbəttə, bu da onların planlarını alt-üst edir.

Oyunlarla bağlı qeyd etməliyəm ki, idmançılarımız bizi sevindirdilər. Azərbaycan tarixi qələbə qazanmışdır, komanda hesabında ikinci yerə layiq görülmüşdür. İdmançılarımız 21-i qızıl olmaqla 56 medal qazanmışdır. Yəni, Birinci Avropa Oyunları Azərbaycan dövlətinin, xalqının hərtərəfli bayramı, təntənəsi idi. Əminəm ki, gələcəkdə belə bayramlar, qələbələr çox olacaq.

İslam Həmrəylik Oyunlarının keçirilməsi, də qeyd etdiyim kimi, çox önəmli beynəlxalq yarışma olacaqdır. Azərbaycan İslam aləminin bir parçasıdır. Bu, bizim ailəmizdir və biz çalışmalıyıq ki, bu Oyunlar da ən yüksək səviyyədə keçirilsin. Bütün idmançılara, qonaqlara, nümayəndə heyətlərinin üzvlərinə gözəl şərait yaradılmalıdır ki, ölkəmizlə tanış olsunlar, Azərbaycanın qədim tarixini görsünlər, öyrənsinlər və Azərbaycanda özlərini rahat hiss etsinlər.

Deyə bilərəm ki, bu Oyunlardan başqa Azərbaycan müxtəlif beynəlxalq yarışlara da ev sahibliyi edəcəkdir. 2016-cı ildə "Formula-1" yarışması ilk dəfə olaraq Azərbaycanda keçiriləcəkdir. Bu da futbol üzrə dünya çempionatı ilə bir səviyyədə olan yarışmadır. Bütün dünyanın gözü yenə də Azərbaycanda olacaq. Əminəm ki, biz bu yarışmanı da yüksək səviyyədə keçirəcəyik. Gələn il Azərbaycanda Dünya Şahmat Olimpiadası keçiriləcək. Yəni, biz bu yolla gedirik və gedəcəyik. Çünki bizim imkanımız var və eyni zamanda, biz bu yolla ölkəmizi dünyaya tanıdırıq.

Bədxahlara, anti-Azərbaycan, islamofob qüvvələrə ən yaxşı cavabımız bizim reallıqlarımızdır. Gəlsinlər, öz gözləri ilə görsünlər. Deyə bilərəm ki, Azərbaycana gələn xarici qonaqların mütləq əksəriyyəti ölkəmizdən ən xoş arzularla ayrılır. Çünki onlar qərəzsizdir, Azərbaycana xoş niyyətlə gəlirlər. Mən demişəm və bir daha demək istəyirəm ki, biz xoş niyyətlə ölkəmizə gələn bütün xarici qonaqlara qucaq açırıq. Azərbaycan multikulturalizm diyarıdır. Azərbaycanda dini, milli zəmində heç bir ayrı-seçkilik yoxdur, heç vaxt olmayıb və olmayacaqdır. Biz bir çox ölkələr üçün nümunəyik, xüsusilə, indiki dövrdə. Bu gün hamımızın gözü qarşısında müsəlman qaçqınlara işgəncələr verilir. Bu, bizi hiddətləndirir. Onu da qeyd etməliyəm, Azərbaycan o ölkələrdəndir ki, öz səsini ucaldır. Biz ədalətsizliyə dözə bilmirik. Biz ədalətin, insanlığın tərəfdarıyıq. Bütün vacib beynəlxalq məsələlərlə bağlı bizim öz mövqeyimiz var. Hesab edirəm ki, əgər bizim təcrübəmiz geniş şəkildə öyrənilərsə, o zaman dünyada münaqişələrin və dini, milli zəmində qarşıdurmaların sayı da azalacaqdır.

Azərbaycan bir nümunədir, bir örnəkdir. Bu, normal həyat tərzidir. Mən bir daha demək istəyirəm ki, biz həyata keçirdiyimiz işlərdə hər hansı bir fövqəladə nailiyyət görmürük. Bu, normal həyat tərzidir. Sadəcə olaraq, bəzi ölkələrdə bu normal həyat tərzi pozulub və irqçilik, ksenofobiya, islamofobiya hökm sürür.

Əminəm İslam Oyunları ilk növbədə İslam həmrəyliyini gücləndirəcək, həm İslam aləminə, həm dünyaya bir daha göstərəcək ki, İslam dini sülh, mərhəmət və qardaşlıq dinidir. Eyni zamanda, dünyaya göstərəcək ki, Azərbaycan böyük imkanlara malik olan ölkədir və ən mötəbər beynəlxalq yarışları keçirməyə qadirdir.

Biz çalışacağıq ki, bütün təşkilati məsələlər öz həllini tapsın. Birinci Avropa Oyunlarında əldə edilmiş təcrübə, əlbəttə ki, bizə kömək göstərəcək. Nəzərə alsaq ki, Təşkilat Komitəsi təxminən bu tərkibdə Avropa Oyunlarının keçirilməsi ilə də məşğul idi, mən əminəm, qarşıda duran bütün vəzifələr icra ediləcəkdir və bir daha Azərbaycan öz imkanlarını ortaya qoyacaqdır.

## Azərbaycan və Ermənistan Xarici İşlər nazirləri arasında görüş olub

***Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov sentyabrın 25-də BMT Baş Məclisinin 70-ci sessiyası çərçivəsində ATƏT-in Minsk Qrupunun həmsədrləri (Amerika Birləşmiş Ştatlarından Ceyms Uorlik, Rusiya Federasiyasından İqor Popov, Fransadan Pyer Andryu) və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşikin iştirakı ilə Ermənistanın xarici işlər naziri Edvard Nalbandyan ilə görüşüb.***

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə nazir Elmar Məmmədyarov tərəfindən Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə əlaqədar Azərbaycanın mövqeyi qəti şəkildə bir daha vurğulanıb. Ermənistanın Azərbaycan ərazilərinin işğalına əsaslanan mövcud status kvonun qəbuledilməz və qeyri-davamlı olduğunu deyən Elmar Məmmədyarov Azərbaycanın öz ərazilərinin işğalı ilə heç zaman barışmayacağını bildirib.

Nazir Elmar Məmmədyarov Ermənistanın müxtəlif təxribatçı addımlar, o cümlədən qoşunların təmas xətti və Ermənistan-Azərbaycan sərhədi boyunca vəziyyətin gərginləşdirilməsi ilə danışıqlar prosesinə xələl gətirmək məqsədi güddüyünü qeyd edib. Ermənistanın əsl məqsədinin təcavüz və işğalın davam etdirilməsi olduğunu bildirib. Ermənistanın hər vəchlə əsl etimad quruculuğu tədbiri olacaq Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı və erməni icması arasında təmaslara imkan vermədiyi diqqətə çatdırılıb.

Elmar Məmmədyarov bir daha vurğulayıb ki, münaqişənin həlli üçün Ermənistanın Azərbaycana qarşı işğalına son qoyulmalı və işğal olunmuş ərazilərdən Ermənistanın silahlı qüvvələri çıxarılmalıdır.

Nazir Elmar Məmmədyarov tərəfindən qeyd olunub ki, Azərbaycan münaqişənin həlli üçün danışıqlar prosesində iştirak edir. Lakin danışıqların nəticəsində Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş əraziləri işğaldan azad olunmazsa, Azərbaycan öz ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığını təmin etmək üçün bütün zəruri addımları atacaqdır.

Elmar Məmmədyarov atılacaq hər hansı addımın bütün məsuliyyətinin işğalçı və təcavüzkar dövlət kimi tam şəkildə Ermənistanın üzərinə düşdüyünü vurğulayıb.

## Azərbaycanlı deputatdan Avropa Şurasının baş katibinə kəskin sual: "İndi Azərbaycanın necə güclü olduğuna inandınızmı?"

***Avropa Şurası Parlament Assambleyasının (AŞPA) hər sessiyasında olduğu kimi, bu dəfə də Avropa Şurasının baş katibi Torbyorn Yaqland hesabat səciyyəli məruzə ilə çıxış etdi. Adətən olduğu kimi, məruzədən sonra deputatların sualları səsləndi. Lakin ötən sessiyalardan fərqli olaraq, bu dəfə Avropa Şurasının baş katibinə ünvanlanan suallar qat-qat çox idi. Bu da səbəbsiz deyil, çünki həm Avropa, həm də Avropa Şurasının özü bir təşkilat olaraq son dövrlərdə ciddi problemlər yaşamaqdadır. Suallarla məhz belə ağrılı, aktual məsələlərə qaneedici cavablar axtarılırdı.***

Azərbaycan nümayəndə heyətinin üzvü Rafael Hüseynov Avropa Şurasının baş katibi Torbyorn Yaqlanda belə bir sualla müraciət etdi: "Bu gün dünya, Avropa son dərəcə narahat, kədərli günlər yaşayır. Miqrant axınları Avropanı şok vəziyyətinə gətirib, bir sıra dövlətlər sərhədlərini bağlayaraq sel kimi gələn və özü ilə çoxlu problemlər gətirən insanları ölkələrinin ərazisinə buraxmaq istəmir. Mənim iki hissədən ibarət sualım bu ağrılı problemlə bağlıdır. Birincisi, indi gördünüz və inandınızmı Avropanı diz çökdürən, miskin vəziyyətdə qoyan bu problemlə son 25 ildə qarşı-qarşıya qalan, müxtəlif millətlərdən və ölkələrdən 1 milyon insanı qəbul edib yerləşdirən, tədricən onları normal həyat şəraiti ilə təmin edən Azərbaycan nə qədər əziyyətlər çəkib və nə qədər güclü imiş?! İkincisi, Cənubi Qafqazın müxtəlif guşələrindən, İrandan, Orta Asiyadan, hətta müharibə vəziyyətində olduğu işğalçı Ermənistandan gələn erməniləri belə milliyyətinə, dininə fərq qoymadan eyni qayğıkeşliklə qəbul edən Azərbaycanı bu gün Avropaya üz tutan müsəlman miqrantlara irqçi, faşist düşüncəsi ilə, qəddarcasına yanaşanlarla müqayisə edəndə tolerantlıq fərqimizi hiss etdinizmi?!"

Bu kəskin qoyulmuş suallar qarşısında çətin vəziyyətdə qalan Avropa Şurasının baş katibi doğrudan da Azərbaycanın illərdən bəri nə qədər müşkül problem yaşamasını, onun öhdəsindən uğurla gəlməsini etiraf edib və təəssüflə bildirib ki, Avropa Azərbaycandan, indi böyük qaçqın kütlələrini qəbul edən Türkiyədən fərqli olaraq bu problem qarşısında aciz vəziyyətdə qalıb.

**AZƏRTAC**

# "Düşmən qarşımızda tab gətirə bilməz"

***Gözünü Azərbaycan torpaqlarına dikmiş xain qonşularımız və ona dəstək olan qüvvələr bizdən qorxmalıdı. Azərbaycan dövləti hələ müstəqilliyinin 20-ci illərini yaşayır. Bu illər ərzində çox çətinliklər çəkib. Müstəqilliyi qazanmaq asan deyil. Xalqımızın azadlıq əzmi heç bir zaman sönməyən bir atəşdir. Hələ 1918-ci ildə ilk müstəqilliyi tez bir zamanda itirsək də, bu alov ürəklərdə sönməmişdi, daha da güclənmişdi. Xalqımız suverenliyi üçün mübarizə aparır, dövlətçilik ideologiyasını təbliğ edirdi. 1991-ci il oktyabrın 18-də Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul olundu.***



Azərbaycanın strateji əhəmiyyətli mövqedə yerləşməsi, təbii qaz və neft yataqları ilə zəngin olması dünya ölkələrinin daim diqqətini cəlb edib. Torpaqlarımıza göz dikən Ermənistan elan etmədən Azərbaycana qarşı müharibəyə başladı. Ermənipərəst qüvvələrin dəstəyinə və köməyinə güvənib torpaqlarımızı işğal etdilər.

Artıq müstəqilliyimizin 24 ili arxada qalıb. Bu illər ərzində ümummilli liderimiz Heydər Əliyevin və onun layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin uğurlu siyasəti nəticəsində ölkəmiz dünyada böyük nüfuz qazanıb. Ölkəmizdə bütün sahələrində yüksək inkişaf gedib. Bu inkişafın təzahür tapdığı sahələrdən biri də ordu quruculuğudur. Ordumuz ən müasir silahlarla, texnikalarla təchiz edilib, hərbi biliklərə dərindən yiyələnən şəxsi heyətə malikdir. Ordu sıralarında torpaqlarımızın hər qarışı üçün canından keçməyə hazır olan əsgərlərimiz xidmət edirlər. Onların hər biri Azərbaycan əsgəri olmaqla fəxr edir. Silahlı Qüvvələrimizdə keçirilən islahatlar, orduya göstərilən diqqət və qayğı nəticəsində ordumuz günü-gündən güclənir və inkişaf edir. Hərbi hissələrdə istifadəyə verilən yeni yataqxanalar, yeməkxanalar, hərbi şəhərciklər hərbi qulluqçulara olan qayğının diqqətin bariz nümunəsidir. Bu qayğının nəticəsidir ki, hal-hazırda Silahlı Qüvvələrimiz Cənubi Qafqazın ən güclü ordusudur. Komanda Qərargah Hərbi Oyunları Azərbaycan Ordusunun nəyə qadir olduğunu bir daha göstərdi.

Orduda gedən bu inkişaf mənfur qonşularımızın gözünü günü-gündən daha da qorxudur. Artıq Azərbaycan əsgərinin adını eşidəndə düşmənlərimiz vahiməyə düşür. Bu sözləri əbəs yerə demədim. Həm arxa cəbhədə xidmət edən əsgərlərimizin döyüş hazırlığı, həm də ön xətdə düşmənlə qarşı-qarşıya duran döyüşçülərimizin qorxmazlığı və şücaəti bu sözləri deməyə əsas verir. Bu günlərdə cəbhə xəttindəki "N" hərbi hissəsindən fərəhlənmişdik. Xidmətə Ağstafa rayonundan çağırılmış əsgər söhbətimizdə deyir ki, növbədə daim ayıqsayıq xidmət aparıb düşməni cavab atəşi ilə susdururuq. "Ali Baş Komandanın döyüş əmrinə hər an hazırıq. Özləri rədd olsunlar bizim torpaqlardan. Erməni analarına məsləhətim odur ki, boş ümüdlərlə övladlarını postlara göndərməsinlər. Çünki bizim qarşımızda durmağa onların nə gücü, nə də texnikası davam gətirə bilər. Biz torpaqlarımızı işğaldan azad edəcəyik. O gününə az qalıb!"



**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Təxribata görə məsuliyyət Ermənistan tərəfinin üzərinə düşür

Ermənistan silahlı qüvvələrinin bölmələri növbəti dəfə Silahlı Qüvvələrimizin mövqelərini və dövlət sərhədi boyu yerləşən kəndlərimizi müxtəlif çaplı silahlardan istifadə etməklə intensiv surətdə atəşə tutublar.

Sentyabrın 23-də gecə saatlarında Ermənistan Respublikasının Noyemberyan rayonunun Dovex kəndi istiqamətindən iriçaplı silahlardan Azərbaycan Respublikasının Qazax rayonunun Kəmərli kəndinin atəşə tutulması nəticəsində mülki sakin Dursunova Esmira Aslan qızı yaralanıb. Göstərilən ilkin tibbi yardımdan sonra E.Dursunova Qazax rayon Diaqnostika Mərkəzinə yerləşdirilib, vəziyyəti orta-ağır qiymətləndirilir.

Ermənistan tərəfinin bu cür təxribat əməllərini həmişə olduğu kimi, Azərbaycanda əlamətdar hadisələr, bayram günləri keçirildiyi vaxtda törətməsi məqsədyönlü xarakter daşıyır və məhz dövlət sərhədində Silahlı Qüvvələrimizi provokasiyaya cəlb etmək niyyətini güdür.

Müdafiə Nazirliyi bildirir ki, düşməni susdurmaq məqsədilə Silahlı Qüvvələrimiz tərəfindən görülən təxirəsalınmaz və adekvat tədbirlər nəticəsində Ermənistan silahlı qüvvələrinin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə güclü atəş zərbələri endirilib. Bir daha bəyan edirik ki, düşmən tərəfində baş verən itkilər və dağıntıya görə bütün məsuliyyət qarşı tərəfin üzərinə düşür.

## Dövlət sərhədində vəziyyətin gərginləşməsinə və erməni mülki əhalisinə dəyən ziyana görə Ermənistanın kriminal hərbi-siyasi rejimi məsuliyyət daşıyır

Ermənistanın bəzi elekton kütləvi informasiya vasitələri cəbhədəki vəziyyət, guya düşmən tərəfindən hansısa postumuzun dağıdılması və Silahlı Qüvvələrimizin itki verməsi ilə bağlı növbəti dəfə yalan məlumat yayıblar.

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi bəyan edir ki, bu kimi xəbərlərin heç bir əsası yoxdur və dezinformasiya xarakteri daşıyır.

Heç şübhəsiz ki, siyasi və hərbi iflasa uğramış Ermənistan hakimiyyətindəki kriminal rejim tərəfindən təkrarlanan bu kimi informasiyalar ilk növbədə cəbhədəki uğursuzluğa, canlı qüvvə sarıdan verdikləri itkilərə görə erməni ictimaiyyəti qarşısında bəraət qazanmaq, eyni zamanda həmsərhəd kəndlərdə Azərbaycanın mülki vətəndaşlarına qarşı törətdikləri cinayətləri gizlətmək məqsədi daşıyır.

Silahlı Qüvvələrimizin bölmələri Ermənistanla dövlət sərhədi boyu yerləşən daha üstün və əlverişli yüksəkliklərdəki mövqelərdən düşmənin istənilən hərbi obyektini darmadağın etmək, təmas xəttinin dərinliyində olan yaşayış məntəqələrini, kommunikasiya xətlərini tam nəzarətdə saxlamaq imkanına malikdir.

Erməni tərəfinin, xüsusilə erməni mülki əhalisinin nəzərinə bir daha çatdırmağı vacib sayırıq ki, Azərbaycan əsgəri yalnız mülki əhaliyə atəş açmamaq barədə əmr alıb. Digər hallarda hərəkət edən istənilən hərbi obyekt komandanlığın icazəsi gözlənilmədən məhv ediləcəkdir. Bu səbəbdən də istənilən hərbi məqsədli vasitələrin mülki əhalinin olduğu yaşayış məntəqələrində yerləşdirilməsinə, qarşıdurma nəticəsində dinc sakinlərə vurulan ziyana görə məsuliyyət öz əhalisini məqsədyönlü surətdə girov saxlayan Ermənistan hakimiyyətinin üzərinə düşür.

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edəcəklər

Sentyabrın 28-dən oktyabrın 2-dək Oberammerqau şəhərində (AFR) enerji təhlükəsizliyi sahəsində şəraitə strateji nəzarət kursu, sentyabrın 29-dan noyabrın 13-dək Qarmiş-Partenkirxen şəhərində (AFR) Ali Təhlükəsizlik proqramı üzrə növbəti kurs, sentyabrın 30-dan oktyabrın 1-dək Helsinki şəhərində (Finlandiya) Əməliyyat İmkanları Konsepsiyası proqramının illik konfransı keçiriləcək.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri də iştirak edəcəklər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***28 sentyabr 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 və 82 millimetrlik minaatanlardan, qumbaraatanlardan, həmçinin, iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 116 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Tapqaraqoyunlu, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Qızıloba, Göyarx, Ağdam rayonunun Kəngərli, Mərzili, Sarıcalı, Yusifcanlı, Novruzlu, Cəvahirli, Şuraabad, Şıxlar, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Qorqan, Aşağı Seyidəhmədli, Aşağı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 151 dəfə atəş zərbəsi endirib.

***29 sentyabr 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 millimetrlik minaatanlardan, qumbaraatanlardan, həmçinin iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 79 dəfə pozub.

Ermənistan silahlı bölmələri İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində yerləşən mövqelərimizi atəşə tutub.

Goranboy rayonunun Talış, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Ağdam rayonunun Sarıcalı, Yusifcanlı, Cəvahirli, Şıxlar, Xocavənd rayonunun Kuropatkino, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 88 dəfə atəş zərbəsi endirib.

# Cəbhədə ağır döyüşlər davam edir

## Düşmənin canlı qüvvəsi və döyüş texnikasının toplanma məntəqəsinə zərbə endirilib

Cəbhə xəttində gərginlik səngimir.

Sentyabrın 27-də gün ərzində və 28-ə keçən gecə Silahlı Qüvvələrimizin bölmələrinin qabaqlayıcı tədbirləri nəticəsində qoşunların təmas xəttində düşmənin fəallaşmaq cəhdinin qarşısı alınıb.

Erməni hərbi bölmələrinin ön səngərlərinə, mövqelərinə, eləcə də müəyyən edilmiş koordinatda onun müdafiəsinin dərinliyindəki canlı qüvvəsi və döyüş texnikasının toplanma məntəqəsinə endirilən zərbələrindən sonra qarşı tərəfin 7 hərbi qulluqçusu məhv edilib, çoxlu sayda yaralısı var.

Düşmənlə ağır döyüşlərdə cəbhənin müxtəlif istiqamətlərində Silahlı Qüvvələrimizin 3 hərbi qulluqçusu Vəliyev Rauf Fəxrəddin oğlu, Əhmədzadə Neman İspəndiyar oğlu və Mustafazadə Zöhrab Namiq oğlu şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhid olmuş hərbi qulluqçuların ailələrinə, əzizlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir!

Silahlı Qüvvələrimizin bölmələri bütün cəbhə boyu əməliyyat şəraitinə tam nəzarət edir və qoşunların təmas xəttində təxribatların qarşısını almaq məqsədilə düşmənə qarşı müvafiq tədbirlər həyata keçirilir.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi bəzi yerli kütləvi informasiya vasitələrini erməni tərəfinin xüsusi təbliğat fəaliyyətində iştirak etməkdən çəkinməyə çağırır

Ermənistanın bəzi elektron kütləvi informasiya vasitələri tərəfindən guya sentyabrın 28-də həlak olan Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçularının ad-soyadları da göstərilməklə yayılmış məlumatın heç bir əsası yoxdur.

Bu kimi ucuz, tam cəfəng xarakterli məlumatlar yalnız erməni ictimaiyyətini aldatmaq məqsədi daşıyır və bir daha sübut edir ki, düşmən tərəfi mənəvi-psixoloji cəhətdən düşkün vəziyyətdədir.

Rəsmi olaraq bildiririk ki, adları siyahıda göstərilən şəxslər, ümumiyyətlə, Silahlı Qüvvələrimizdə yoxdur.

Müdafiə Nazirliyi cəbhədə baş verən hadisələr barədə ictimaiyyətə mütəmadi xəbər verir və son günlər qoşunların təmas xəttində gedən döyüşlərdə şəhid olanlar barədə də tərəfimizdən rəsmi məlumatlar verilib.

Bildiririk ki, bu kimi xəbərlər erməni tərəfinin xüsusi təbliğatının bir hissəsidir və bəzi yerli elektron kütləvi informasiya vasitələri də bu fəaliyyətlərdə iştiraka qoşulurlar. Müdafiə Nazirliyi erməni tərəfinin və onların məlumatlarını tirajlayan, sensasiya ardınca qaçan bəzi yerli KİV orqanlarının sayıqlamalarına da şərh verməyəcəkdir.

Bu səbəbdən də bir daha kütləvi informasiya vasitələrinin nümayəndələrindən düşmən təxribatlarına uymamağı və yalnız dəqiqləşdirilmiş rəsmi məlumatları yaymağı tövsiyə edirik.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Ağır döyüşdə düşmən xeyli sayda itki verib

Sentyabrın 25-də qoşunların təmas xəttində düşmənin mövqelərimizə basqın etməyə cəhd göstərməsi nəticəsində ağır və qanlı döyüş baş verib.

Erməni hərbi birləşmələrinin iriçaplı silahlardan, eləcə də 82 millimetrlik minaatanlardan istifadə etməsi nəticəsində Silahlı Qüvvələrimizin bir nəfər hərbi qulluqçusu əsgər Məmmədov Elşən Vaqif oğlu şəhid olub, 3 hərbi qulluqçumuz yüngül qəlpə yaraları alıb. Onlara ilkin tibbi yardım göstərilib. Vəziyyətləri kafidir.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidimizin yaxınlarına dərin hüznlə başsağlığı verir və səbr diləyir. Bildiririk ki, şəhidlərimizin qanı həmişə olduğu kimi, bu dəfə də yerdə qalmayacaqdır.

Silahlı Qüvvələrimizin bölmələrinin düşmənə qarşı güc tətbiq etməklə həyata keçirdiyi adekvat tədbirlər zamanı ona endirilən raket-artilleriya zərbələri nəticəsində qarşı tərəfin 4 hərbi qulluqçusu məhv edilib və 16 nəfərədək yaralısı var. Onlardan 10 nəfəri ağır vəziyyətdədir.

Silahlı Qüvvələrimizin bölmələri bütün cəbhə boyu əməliyyat şəraitinə tam nəzarət edir, düşmənin istənilən hərəkətinin qarşısı daha üstün silahlar tətbiq edilməklə qətiyyətlə alınır.

Müdafiə Nazirliyi bir daha bildirir ki, cəbhədə vəziyyətin gərginləşdirilməsinə görə məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Vətənpərvərlik diqqət mərkəzində

***Hərbi hissələrdə ezamiyyətdə olarkən Vətənini sevən, torpaq uğrunda canından keçməyə hazır olan oğullarımızla həmsöhbət oluruq. Belə insanlarla söhbətdə həm duyğulanır, həm də qürur hissi keçirirsən. Bu gün Silahlı Qüvvələrimizdə xidmət edən hərbi qulluqçuların bir həyat tərzi var. Lakin orduda xidmət edən hər kəsin tək amalı torpaqlarımızı azad etmək, mənfur düşməni əzəli və əbədi Azərbaycan ərazilərindən çıxarmaqdır.***




Zaman keçir, vətənpərvər gənclik yetişir. İnkişaf edən Azərbaycan! Vətənini sevən xalq! Budur, düşməni qorxuya salan... Cəbhə boyu Vətənin keşiyində duran hər bir döyüşçü nə üçün burda olduğunu bütün məsuliyyəti ilə dərk edir və gecə-gündüz, isti-soyuq bilmədən düşməni nəzarətdə saxlayır. Azərbaycan oğlunun bir əmrlə torpaqlarımızı azad etmək üçün son damla qanına qədər vuruşacağını, ordumuzun günbəgün gücləndiyini düşmən də yaxşı dərk edir.

"N" hərbi hissəsində olarkən leytenant Təhməz Əlizadə ilə həmsöhbət olduq. O, uşaqlıqdan hərbçi olmaq arzusu ilə yaşayıb. Lakin ailə problemləri səbəbindən hərbi məktəbdə təhsil ala bilməyib. Universitetə daxil olub. Bu illər ərzində ordu ilə sıx maraqlanıb, hərbi kitablar oxuyub. Hərbçi olmaq həvəsi onu ehtiyat zabit hazırlığı kursuna gətirib. Sonra ön xəttə göndərilib. Onunla söhbətdə vətənpərvər düşüncələrinin şahidi olduq.

- Hər zaman şəxsi heyətin mənəvi-psixoloji vəziyyətini daim yüksək tutmaq üçün əsgərlərlə söhbət edirəm. Hər şeydən əvvəl vətənpərvərliyin mahiyyətini izah etməyə çalışıram, - deyir zabit Təhməz Əlizadə. - Vətənpərvərliyin mahiyyəti Vətənə məhəbbət və öz şəxsi maraqlarını Vətən yolunda qurban verməyə əsaslanan emosional hissdir. Bu, həm də mənsub olduğun xalqın etnik, mədəni, siyasi və tarixi xüsusiyyətlərinə arxalanan milli hissiyyat, milli qürur kimi də başa düşülməlidir. Vətənin milli-mənəvi xüsusiyyətlərini duymaq, bu keyfiyyətləri öz mənliyində hiss etmək, dövlətinin və xalqının marağını qorumaq da vətənpərvərlik keyfiyyətlərinə aiddir. Vətənpərvərliyin tarixi kökündə min illər boyu yaranmış, möhkəmlənmiş, öz ana torpağına, dilinə və adət-ənənələrinə bağlanmış dövlətçilik durur. Millətin və dövlətçiliyin fonunda formalaşan vətənpərvərlik zaman keçdikcə ictimai düşüncənin tərkib hissəsinə çevrilir.

Söhbətimizin davamında gənc zabit bildirir ki, düşmən tez-tez atəşkəsi pozur. Onların bu əməli bizi qorxutmaq, güc göstərmək üçün deyil. Düşmən qorxduğu üçün atəş açır.

Bütün varlığı Vətən olan döyüşçülərlə söhbətimizi yekunlaşdırıb, bu yerlərdən qələbə reportajı hazırlamaq arzusu ilə vidalaşırıq.

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

# "Ermənistanın münaqişənin həlli prosesində iştirakı yalnız beynəlxalq ictimaiyyəti aldatmaq məqsədi daşıyır"

***Ermənistanın rəhbərliyinin "Dağlıq Qarabağ Ermənistanın ayrılmaz hissəsidir" deyilən bəyanatı Ermənistanın Azərbaycan ərazilərini işğalının, təcavüzkar dövlət kimi münaqişədə Ermənistanın daşıdığı hüquqi-siyasi məsuliyyətin və Ermənistanın əsl simasının növbəti əsaslı sübutudur.***

Bu fikirləri Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev Ermənistan rəhbərliyinin sentyabrın 26-dakı açıqlamasına münasibət bildirərkən AZƏRTAC-a bildirib.

H.Hacıyev vurğulayıb ki, BMT Baş Məclisinin 70-ci sessiyası və ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə münaqişənin həllinə dair Nyu-Yorkda danışıqların aparıldığı dövrdə Ermənistan rəhbərliyinin Azərbaycanın suverenliyinin pozulması və ərazilərinin ilhaq edilməsinə dair bu cür məsuliyyətsiz bəyanatı beynəlxalq hüquq, BMT Nizamnaməsi, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri, danışıqlar prosesi və beynəlxalq ictimaiyyətə qarşı hörmətsizliyin, özbaşınalıq və cəzasızlıq sindromunun ən ifrat nümunəsidir. Bu bəyanat açıq şəkildə beynəlxalq hüquqi və siyasi məsuliyyət ehtiva edir.

Azərbaycan tərəfi dəfələrlə bəyan edib və təkzibolunmaz faktlarla sübut edib ki, Ermənistanın münaqişənin həlli prosesində iştirakı yalnız imitasiya və beynəlxalq ictimaiyyəti aldatmaq məqsədi daşıyır, rəsmi Yerevanın hədəfi Azərbaycan ərazilərinin ilhaqı və işğalına əsaslanan mövcud status-kvonu saxlamaqdan ibarətdir.

Vurğulanıb ki, Ermənistanın kriminal hərbi diktatura rejimi işğal olunmuş ərazilərdə qeyri-qanuni fəaliyyətlərin həyata keçirilməsi, Ermənistan-Azərbaycan sərhədi və qoşunların təmas xətti boyunca intensiv şəkildə atəşkəsin pozulması və Azərbaycanın mülki əhalisinin hədəfə alınması kimi təxribatçı əməlləri ilə münaqişənin danışıqlar yolu ilə həlli prosesini pozmaq siyasətini davam etdirir.

Eyni zamanda, ümumxalq iğtişaşı və siyasi, iqtisadi və maliyyə böhranı ilə üzləşən Ermənistanın hərbi xunta rejimi cəbhə xəttində vəziyyətin gərginləşdirilməsi ilə ölkə ictimaiyyətini xof içərisində saxlamaq və kəskin ölkədaxili problemlərdən diqqəti yayındırmaq kimi məqsədlər güdür.

Təəssüflər olsun ki, ikili standartlardan çıxış edərək, münaqişə ilə bağlı verilən bir sıra bəyanatlar təcavüzkar dövlət ilə işğala məruz qalan dövlət arasında fərq qoymur, konkret ünvanlı xarakter daşımır, münaqişənin köklü səbəblərinə varmır, Ermənistanın siyasi rəhbərliyinin avantürist və məsuliyyətsiz siyasətinə beynəlxalq hüquqi qiymət vermir və yalnız simptomatik xarakter daşıyır.

Azərbaycan Respublikası ərazilərinin işğalı ilə heç zaman barışa bilməz. Münaqişə yalnız Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində, ölkəmizin ərazi bütövlüyü və suverenliyi əsasında həll edilməlidir. Əks təqdirdə, beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində suverenliyi və ərazi bütövlüyünü qorumaq üçün Azərbaycan Respublikasının atmaq məcburiyyətində qala biləcəyi addımların istənilən nəticələrinin məsuliyyəti tam şəkildə Ermənistan Respublikasının üzərinə düşəcək.

*Dövlət idarəçiliyi*

# Dövlət qulluğunda çalışmaq dövlətə, xalqa xidmət deməkdir

***Azərbaycanda müasir dövlət qulluğu sisteminin formalaşdırılması və inkişafı, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu da ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyətin rəhbərliyi ilə ölkəmizdə dövlət qulluğu sahəsində aparılan islahatların ən mühüm nəticələrindən biri kimi 2000-ci ildə qəbul edilən "Dövlət Qulluğu haqqında" Qanunla Azərbaycanda dövlət qulluğu sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasının əsası qoyulmuş, kadr siyasətinin əsas prinsipləri, dövlət qulluqçularının cəmiyyətdəki yeri müəyyənləşdirilmişdir.***

Ulu öndər Heydər Əliyevin zəngin irsinə söykənən və Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilən inkişaf strategiyası üç fundamental bəşəri prinsipə əsaslanır: güclü dövlət, səmərəli iqtisadiyyat və azad insan. Azərbaycanın müasir dövrdə qazandığı nailiyyətlər hər üç başlanğıcın qarşılıqlı, ahəngdar fəaliyyəti ölkənin hərtərəfli tərəqqisinə zəmin yaradır. Azərbaycan Prezidentinin yürütdüyü siyasətin məqsədyönlü və ardıcıl olması, həmçinin, ölkənin milli mənafelərini əks etdirməsi hər bir vətəndaşımızda gələcəyə böyük inam və əminlik yaradır. "Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm. Mənim borcumdur ki, imkan daxilində hər bir vətəndaş inkişafa, yaxşılığa doğru irəliləyişi görsün və onu hiss eləsin..." deyən cənab İlham Əliyev ulu öndərin dövlətçilik irsinə sədaqətini bir daha nümayiş etdirir, bu prinsipləri gerçəkliyə çevirmək üçün ardıcıl, məqsədyönlü, uğurlu fəaliyyət göstərir, bütün məsələlərdə məhz xalqın mənafeyini əsas götürür.

Azərbaycan Respublikasının yeni iqtisadi sistemə sürətli keçidi, dövlət quruculuğunun uğurla reallaşması, dünya dövlətləri sırasında mövqeyinin getdikcə güclənməsi, həyatın bütün sahələrində yeni-yeni nailiyyətlər qazanılması bu gün hər bir ölkə vətəndaşını, o cümlədən dünyada yaşayan bütün soydaşlarımızı sevindirir, onların qəlbini qürur hissi ilə döyündürür. Azərbaycanın 12-28 iyun 2015-ci il tarixdə Birinci Avropa Oyunlarına ev sahibliyi etməsi, bu Oyunların təşkilində və keçirilməsində çox böyük iradə və əzm nümayiş etdirməsi, Azərbaycan Prezidenti İlham Əliyevin və respublikanın birinci xanımı, Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın səyləri ilə Oyunların yüksək səviyyədə keçirilməsi hətta böyük dövlətləri belə heyrətə gətirdi.

Bunların hamısı ölkədə yaradılmış demokratik işgüzar şəraitin, bütün səviyyələrdə ciddi nizam-intizamın mövcudluğundan irəli gəlir.

Azərbaycanın dünyada təqdir olunan nailiyyətlərinin qazanılmasında dövlət idarəetmə sistemində çalışan insanların, o cümlədən respublikanın 80-ə yaxın dövlət hakimiyyəti orqanının və digər qurumların aparatlarında inzibati vəzifələrdə çalışan dövlət qulluqçularının əməyi də az deyildir. Dövlət qulluğunda çalışmağın hər bir insan üçün son dərəcə şərəfli iş olmasını və ona müstəqil, demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun ön sıralarında durmaq imkanı verməsini təbliğ etməklə dövlət qulluğuna milli ruhu yüksək olan mütəxəssislər cəlb edilir.

Dövlət qulluqçularının sayı əvvəlki ilə nisbətən bir qədər artmışdır ki, bu da yeni idarəetmə strukturlarının yaradılması və təkmilləşdirilməsi ilə bağlıdır.

Azərbaycanda dövlət qulluğunun müasir inkişaf tarixinin 2000-ci ilin iyulundan, yəni ulu öndər Heydər Əliyevin imzaladığı "Dövlət qulluğu haqqında" Qanunla başladığını desək, yanılmarıq. Ulu öndər dövlət qulluqçularına qarşı son dərəcə tələbkar münasibət göstərir, öz fəaliyyəti ilə onlara misilsiz örnək göstərirdi. Onun böyük ənənələri bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Dövlət qulluğunun əsas istiqamətlərinin müəyyən edilməsi, bu sahədə işin təkmilləşdirilməsi, bu mühüm sferada çalışan insanların hüquq və vəzifələrinin müəyyənləşdirilməsi, onların cəmiyyət və cavabdehliyinin artırılması istiqamətində işlər ardıcıl həyata keçirilir.

> *Dövlət qulluğunda çalışmaq o deməkdir ki, həmin vətəndaşa müstəqil, demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun ön sıralarında olmaq imkanı etibar edilmişdir. Hər bir şəxs bilməlidir ki, dövlət qulluğunda olmaq imtiyaz deyil, məsuliyyətdir, insanlara xidmət imkanıdır. Tutduğu vəzifənin səviyyəsindən və əhəmiyyətindən asılı olmayaraq, dövlət qulluqçusu həmişə xatırlamalıdır ki, o, xalqın xidmətçisidir, insanlara xidmət, onların qayğıları ilə yaşamaq onun əsas vəzifəsidir.*
>
> **İlham ƏLİYEV**
> **Azərbaycan Respublikasının Prezidenti**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdə dövlət qulluğunu təkmilləşdirmək və bu sahədə şəffaflığı təmin etmək, mükəmməl və işlək dövlət qulluğu sistemi yaratmaq, ölkənin ən bacarıqlı və ən məsuliyyətli kadrlarını dövlət qulluğunun müxtəlif pillələrində irəli çəkmək, sıravi məmurdan tutmuş ən yüksək vəzifəli məmura qədər bütün dövlət qulluqçularının əsas vəzifəsinin xalqa xidmət etmək olduğunu insanlara təlqin etmək, eyni zamanda, bunu hər bir kəsdən qətiyyətlə tələb etmək gündəlik iş normasına çevrilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Ordu quruculuğu bizim üçün daim prioritetdir və Xəzər sahilində ən böyük hərbi obyektlərdən biri bu il Azərbaycanda istifadəyə verilibdir. Hərbi dəniz qüvvələri bazası yaradılmışdır. Bütün digər lazımi tədbirlər görülür, hərbi şəhərciklər, bazalar tikilir, təmir olunur, əsgərlər, zabitlər üçün gözəl şərait yaradılır. Təbii ki, silah-sursat, maddi-texniki təminat daim diqqət mərkəzindədir. Ən müasir silah, texnika alınır və bu gün Azərbaycan Ordusu, dediyim kimi, dünya miqyasında güclü ordular sırasındadır".

Silahlı Qüvvələrimizə daimi diqqət və qayğı Azərbaycan dövlətinin ən əsas vəzifələrindən biri olmuş və bu vəzifə həmişə öz aktuallığını saxlamaqdadır.

Respublikanın sürətli inkişafı davam etdikcə, dövlət qulluğu sistemi daha da təkmilləşir, dövlət qulluqçularının sosial müdafiəsi gücləndirilir və eyni zamanda bütün sahələrdə, bütün məsələlərdə onların məsuliyyəti də artırılır.

Dövlət qulluğu heç də imtiyaz deyil, səlahiyyət deyil, ilk növbədə, cəmiyyətin inkişafı üçün məsuliyyət deməkdir. Dövlət qulluğuna işə götürülərkən hər bir namizəd daim dövlətə sadiq olacağına, vəzifə öhdəliklərini yüksək səviyyədə yerinə yetirəcəyinə, ona verilmiş hüquqlardan şəxsi mənafe üçün istifadə etməyəcəyinə söz verməklə and içir. Dövlət qulluqçusu unutmamalıdır ki, o, ilk növbədə, dövlətin və cəmiyyətin mənafeyini əsas götürməli, ona tapşırılan hər bir vəzifəni böyük məsuliyyət və ləyaqətlə yerinə yetirməlidir. Dövlət qulluğunda əsas amillərdən biri də məmur məsuliyyətidir.

"Dövlət qulluğu haqqında" Qanunun 18-ci maddəsində dövlət qulluqçularının əsas vəzifələri, 25-ci maddəsində isə dövlət qulluqçularının məsuliyyəti göstərilmişdir. Dövlət qulluqçularına həvalə olunmuş vəzifələrin yerinə yetirilməməsi və yaxud lazımi şəkildə yerinə yetirilməməsi, həmçinin, bu Qanunla müəyyən edilmiş məhdudiyyətlərə əməl edilməməsi, qanunda başqa nəzərdə tutulmayıbsa, intizam məsuliyyətinə səbəb olur.

Azərbaycan Prezidenti İlham Əliyev 2015-ci il yanvarın 27-də "Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda demişdir: "Ölkəmizin uğurlu inkişafı üçün vətəndaş-məmur münasibətləri mühüm əhəmiyyət kəsb edir. Azərbaycan bu sahədə də nümunəvi ölkə olmalıdır. Məmurlar yaddan çıxarmamalıdırlar ki, onlar xalq üçün işləyirlər, onlar xalqın xidmətçiləridir".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2005-ci il 19 yanvar tarixli Fərmanı ilə yaradılan "Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya"nın əsas məqsədi dövlət qulluğu sahəsində qəbul edilmiş normativ hüquqi aktların tətbiqini, dövlət qulluğu üçün kadrların seçilməsini, yerləşdirilməsini, dövlət qulluqçularının ixtisas hazırlığının artırılmasını, qanunvericilikdə nəzərdə tutulan siyasətin həyata keçirilməsini təmin etməkdir. Ölkədə bu istiqamətdə həyata keçirilən tədbirlər dövlət qulluqçularının məsuliyyətini artırmaqla yanaşı, sivil, demokratik və vətəndaş cəmiyyətinin tələblərinə cavab verən dövlət idarəçiliyi sisteminin qurulmasında da mühüm rol oynayır.

Respublikamızda dövlət qulluğu sistemində islahatların həyata keçirilməsi prosesi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət qulluqçularına təbrikində dəqiq olaraq təsbit edilmişdir: "Müstəqil Azərbaycan Respublikasında müasir dövlət qulluğu sisteminin formalaşdırılması və inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun ali siyasi hakimiyyətə qayıdışından sonra ölkədə xaos və anarxiyanın qarşısı alındı, dövlət nizamı və sabit dövlət idarəçiliyi bərpa edildi, demokratik hüquqi dövlət quruculuğu prosesi başlandı. Onun rəhbərliyi altında həyata keçirilən idarəçilik fəaliyyəti insanlarda dövlətçilik şüurunu möhkəmləndirdi, hakimiyyət və idarəetmə orqanlarının işinə inamı artırdı. Son illərdə dövlət idarəetmə orqanlarının işinin dövrün tələblərinə uyğun yenidən qurulması, keyfiyyətli kadr korpusunun yaradılması, nazirlik və komitələrin müvafiq istiqamətlər üzrə vahid dövlət siyasətini həyata keçirən hakimiyyət orqanlarına çevrilməsi istiqamətində zəruri tədbirlər görülmüşdür. Həyata keçirilən islahatlar nəticəsində dövlət orqanlarının səlahiyyətləri dəqiqləşdirilmiş, onların öz vəzifələrini daha dəqiq və dürüst icra etmələri üçün imkanlar genişləndirilmiş və məsuliyyət artırılmışdır.

Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında" Qanunu və bu qanundan irəli gələn digər normativ hüquqi aktlarda dövlət qulluqçularının əsas hüquq və vəzifələri ilə yanaşı, onların məsuliyyəti də hərtərəfli müəyyən edilmiş və bu məsuliyyəti dərk edə bilən hər bir dövlət qulluqçusu, sözsüz ki, qarşısına qoyulan vəzifələri yerinə yetirərkən qanunun bu müddəalarına ciddi əməl etməlidir.

İqtisadi inkişaf tempinə görə dünyanın aparıcı dövlətləri ilə yanaşı dayanan gənc müstəqil Azərbaycan Respublikası bütün başqa məsələlərdə olduğu kimi, dövlət idarəçiliyi məsələsində də özünəməxsus nümunə formalaşdırmışdır. Bu nümunə dövlət başçısının qətiyyəti, "Dövlət qulluğu haqqında" Qanunun mükəmməlliyi nəticəsində ərsəyə gəlmişdir. Bu gün biz fəxrlə deyə bilərik ki, Azərbaycan Respublikasının dövlət qulluqçuları korpusu vəzifələrin öhdəsindən uğurla gəlir. Dövlətimizin əldə etdiyi bütün uğurlarda dövlət qulluqçularının öz payı var. Məhz dövlət qulluqçusunun öz işinə münasibəti, onların etik davranış qaydalarına əməl etməsi, bir tərəfdən dövlət siyasətinin həyata keçirilməsini təmin edən, digər tərəfdən ölkə vətəndaşlarının dövlət idarəetmə orqanlarına münasibətini formalaşdıran əsas amildir.

**Əsgər GƏNCƏLİYEV,**
**Müdafiə Nazirliyi**
**Döyüş Hazırlığı**
**və Hərbi Təhsil**
**Baş İdarəsi,**
**dövlət qulluqçusu**



*Düşmənlə üz-üzə olan mövqelərin daha da etibarlı müdafiəsi məqsədi ilə döyüş texnikaları da cəlb olunub. Komandiri leytenant Səddam Musayev olan bölmənin piyadanın döyüş maşınları ön xətdə "kopanel"lərdə müdafiə qurublar. Onlar bununla atəşkəsi pozan düşmənə istənilən an layiqli cavab verirlər. Belə heyətlərdən biri ilə tanış olduq. Döyüş maşınının komandiri gizir Xəqani Əliyev, əsgərlər Cavid Həsənli və Sərxan Qarayusifovdur. Onlar daim müşahidə aparmaqla qarşıdakı düşməni nəzarətsiz qoymur, ilk həmləsinin qarşısını dərhal almaq üçün mövcud imkanlardan yararlanmağa çalışırlar.*

**Foto B.MUSAOĞLUNUNDUR**

# Sarkisyanın son bəyanatı onun iç üzünü açıb göstərdi

AZƏRTAC-ın xüsusi müxbiri Vüqar Seyidov Macarıstanın Duna-TV telekanalına telefonla verdiyi müsahibədə Serj Sarkisyanın "Dağlıq Qarabağın Ermənistanın tərkibinə daxil olması" barədə bu yaxınlarda səsləndirdiyi bəyanatı şərh edərək deyib ki, bu ölkənin prezidenti təzə heç nə deməyib, yalnız Azərbaycan tərəfin həmişə dediyi, Yerevanın isə öz növbəsində israrla inkar etdiyi məsələni etiraf edib.

V. Seyidov deyib: "Xarici siyasətçilər və media qurumları Yerevanı dəstəkləyən siyasi texnoloqların sayəsində özlərini bir növ "neytral" kimi göstərmək və tərəflərin heç birini incitməmək üçün Dağlıq Qarabağı "de-yure Azərbaycanın tərkib hissəsi, amma de-fakto müstəqil dövlət" (claimed to be "independent through unilateral self-determination", but de-facto occupied and annexed) adlandırırdılar. Azərbaycanın mövqeyinin mahiyyəti isə bundan ibarət idi ki, həmin ərazi birtərəfli qaydada guya "öz müqəddəratını təyin etmiş müstəqil dövlət" elan edilsə də, faktiki olaraq Ermənistan tərəfindən işğal və ilhaq edilib. Təbii ki, Qarabağın hər hansı müstəqilliyi barədə danışmağa dəyməzdi, çünki Ermənistan Qarabağı işğal və ilhaq etməklə onu öz tərkibinə dərindən inteqrasiya edib, hərçənd bunu açıq bəyan etməyə utanır və bu ərazinin "öz müqəddəratını təyin etməsi" və "müstəqilliyi" barədə mifi dönə-dönə təkrarlayırdı".

Seyidovun sözlərinə görə, Sarkisyanın son bəyanatı onun iç üzünü açıb göstərdi. AZƏRTAC-ın xüsusi müxbiri deyib: "Ümidvaram ki, bundan sonra Yerevanın ağlı çatacaq və o, "dqr"ın danışıqlar prosesində birbaşa iştirakı barədə danışmağa son qoyacaq. Hansı Qarabağdan danışmaq olar ki, sizin prezident belə bir subyektin mövcud olmasını şəxsən inkar edib. Bir halda ki, Ermənistan prezidenti Qarabağı öz ölkəsinin bir hissəsi adlandırır, onda ATƏT-in Minsk Qrupunun həmsədrləri də daha Qarabağa getməməlidirlər".

Təmas xəttində qüvvələrin eskalasiyası barədə sualın cavabında Seyidov qeyd edib ki, Qərb KİV-ləri nədənsə daha çox nəticələr barədə danışır, səbəblər barədə isə susurlar. AZƏRTAC-ın xüsusi müxbiri deyib: "Erməni tərəfi Azərbaycanda toy məclisini vəhşicəsinə atəşə tutanda nədənsə dünyada hamı susur. Amma Azərbaycan artilleriyası həmin toy məclisinin atəşə tutulduğu mövqeləri, xəbərdarlıq etdiyi kimi, məhv edəndə Qərbdə hamı bizim tərəfdən atəşkəs rejiminin pozulması barədə danışmağa başlayır. Axı "zarafat etməyi" təkcə Sarkisyan yox, biz də xoşlamırıq. Və lazım gələndə biz də stereotipləri asanlıqla aradan qaldıra bilərik. Lakin əgər Sarkisyanın əlaltıları Azərbaycanın dinc sakinlərinə atəş açmağa adət ediblərsə, onda bizim ordumuz yalnız hərbi qulluqçuları və yalnız layiqincə cəzalandırır".

*Təlim*

# Hər məşğələ uğurları ilə yadda qalır



***Nəzarət-buraxılış məntəqəsindən hərbi hissənin ərazisinə daxil olanda şəxsi heyəti təlim meydanında gördük. Qruplara bölünmüş əsgərlər zabitlərin nəzarəti altında məşğələ keçib döyüş hazırlıqlarını artırırdılar. Komandirlərin gur səsi uzaqdan eşidilirdi...***

Qərargahın qarşısında polkovnik-leytenant Musa Teymurovla görüşdük. Qısa tanışlıqdan sonra zabit gördüyü işlərdən söz açdı:

- Əsgərlərimizin həm döyüş, həm də mənəvi-psixoloji hazırlığının yüksək olmasına çalışırıq. Bütün fəaliyyətimiz bu istiqamətdə qurulub. Xidmətimizə məsuliyyətlə yanaşaraq dərs və məşğələlərin hər dəqiqəsindən səmərəli istifadə edirik. Qazanılan uğurlar bizi addım-addım qələbəyə yaxınlaşdırır.

Sonra məşğələ keçən əsgərlərlə görüşmək üçün təlim meydanına yollandıq. Komandirlər əsgərlərə məşğələ keçir, onlara silahların sirlərini öyrədir, döyüş vərdişləri aşılayırdılar. Hər kəsin diqqəti məşğələnin gedişinə yönəlmişdi. Adları çəkilən əsgərlər bir-bir sıradan irəli çıxaraq komandirə yaxınlaşır, avtomat silahını söküb-yığmağa başlayır. Onlar verilən tapşırıqları bacarıqla yerinə yetirir, avtomat silahını tələb olunan vaxtda söküb-yığırlar.

- Üzərimizə düşən başlıca vəzifələrdən biri də hərbi xidmətdə ilk addımlarını atan gənc əsgərlərə hərbi bilikləri öyrətməkdir, - baş leytenant Mədət Səmədov deyir. - Bu, bizim üçün çox şərəfli bir vəzifədir. Əvvəlcə nəzəri məşğələlər keçir, silahlar və döyüş texnikaları barədə geniş məlumat veririk. Onlar nəzəri bilikləri mənimsədikdən sonra əməli məşğələlər başlanır. Əsgərlər həm nəzəri, həm də əməli məşğələlərdə fəal iştirak edərək döyüş vərdişlərini mükəmməl mənimsəyirlər. Bir neçə gün əvvəl şəxsi heyət atış çalışmasını yerinə yetirdi. Hazırlığı yüksək olan əsgərlərimiz hədəfləri dəqiq vurdular. Atış çalışması bir daha göstərdi ki, əsgərlərimiz silahların sirlərini dərindən öyrəniblər. Təbiidir ki, şəxsi heyətin uğurları bizi ürəkdən sevindirir.

Məşğələdə fərqlənən əsgərlərdən Zaur Qədimli, Rüfət Mehribani, Nizaməddin Tahirov, Kamil Muxtarov, Elçin Zeynalov, Vüsal Xəlilli, Səməd Ömərov və başqaları ilə görüşüb söhbət etdik. Onlar bildirdilər ki, Vətən qarşısında borclarını ləyaqətlə yerinə yetirəcəklər.

Şəxsi heyətlə məşğələ davam edir. Əsgərlərin üz-gözündən sevinc yağır. Baxışlarından hiss olunur ki, onlar qartal kimi vüqarlı, polad kimi əyilməzdirlər.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyə hökumətindən PKK-ya daha bir maliyyə zərbəsi



Terrorçu Kürd Fəhlə Partiyası (PKK) ilə qətiyyətli mübarizəyə başlayan Türkiyə hökuməti bu terrorçu təşkilatın maliyyə mənbələrini kəsməkdə davam edir.

"Sabah" qəzetinin məlumatına görə, PKK-nın əsas maliyyə mənbələrinin biri də siqaret qaçaqmalçılığıdır. Cari ilin doqquz ayında Türkiyə polisinin qaçaqmalçılığa qarşı həyata keçirdiyi əməliyyatlar nəticəsində ölkə üzrə 80 milyon qutu siqaret ələ keçirilib. Ümumilikdə ələ keçirilmiş təxminən 170 milyon ABŞ dolları məbləğini əhatə edən qanunsuz siqaret idxalının əsas hissəsi PKK-ya məxsus olub.

### Rəsmi Berlin Suriya liderinə münasibətdə taktikanı dəyişir



Almaniya kansleri Angela Merkel Brüsseldə Avropa İttifaqının növbədənkənar zirvə görüşündən sonra keçirilən mətbuat konfransında bildirib ki, Suriya münaqişəsinin nizama salınması üçün "bir çox əlaqədar şəxslə" dialoq aparmaq lazımdır. Kansler daha sonra təklifinin ən mühüm ikinci hissəsini səsləndirib: "...o cümlədən Əsəd ilə".

Almaniya hökuməti indiyədək ancaq Suriya liderinin istefaya getməsini tələb edirdi. Amma qaçqınların Avropaya və ilk növbədə Almaniyaya axını, İŞİD terrorçu qruplaşmasının mövqelərinin möhkəmlənməsi, görünür, hökumətin siyasi kursunun tədricən dəyişməsinə səbəb olub.

Almaniyanın xarici işlər naziri Frank-Valter Ştaynmayer bu ilin əvvəllərində qəzetlərin birinə müsahibəsində bildirmişdi ki, prinsip etibarilə Suriya rəhbərliyi ilə danışıqlar imkanını istisna etmir.

### Məkkə yaxınlığında baş verən faciədə ölənlərin sayı 753-ə çatıb



Məkkədə - Mina dağında baş verən izdihamda ölənlərin sayı 753-ə çatıb.

Bu barədə Səudiyyə Ərəbistanının Vətəndaş Müdafiəsi Nazirliyinin məlumatında bildirilir.

Məlumatda yaralananların sayının isə 887-ə çatdığı qeyd olunur.

Qafqaz Müsəlmanları İdarəsinin beynəlxalq əlaqələr şöbəsinin müdiri Müqəddəs Payızov bildirib ki, azərbaycanlı zəvvarlarla telefon danışığı olub, ölən və yaralılar arasında azərbaycanlılar yoxdur. Mina dağındakı hadisə azərbaycanlı zəvvarlar oradan ötüb keçdikdən sonra baş verib.

### Malayziyada ildırım vurması nəticəsində bir nəfər həlak olub



Malayziyanın şimal-şərqində yerləşən kənddəki anqara ildırım düşməsi 15 yaşlı yeniyetmənin həlak olmasına və üç nəfər qohumunun xəsarət almasına səbəb olub. Bu barədə yerli polis idarəsi məlumat yayıb.

Hadisə Trenqqanu ştatında, yeniyetmələr çayda ilanbalığı üçün tor qurarkən baş verib. Gözlənilmədən gələn qasırğadan qorunmaq üçün onlar anqara giriblər və bu zaman ildırım düşüb.

### Roma papasını Nyu-Yorkun mərkəzi parkında 80 min mömin salamlayıb



Roma papası Fransiski görmək üçün cümə günü Nyu-Yorkun mərkəzi parkına on minlərlə insan toplaşmışdı. Onlar Vatikanın başçısını "Papa, biz səni sevirik" nidaları ilə salamlayıblar.

Parka giriş üçün bileti Nyu-York meriyası tərəfindən təşkil olunmuş onlayn lotereyada iştirak etməklə almaq olardı. Parka girmək üçün uzun növbələrə dayanmaq lazım gəlirdi.

Cümə günü Roma papasının ABŞ-a səfərində ən zəngin gün olub. O, BMT Baş Məclisində çıxış edib, 11 sentyabr terror aktı qurbanlarının muzeyinə və memorialına baş çəkib. Sonra Harlemdə katolik məktəbinin şagirdləri ilə görüşüb. Mərkəzi parka getdikdən sonra "Medison skver garden" idman-konsert kompleksində ayində iştirak edib.

### İsveçrə prokurorluğu FİFA prezidenti Yozef Blatterə qarşı cinayət işi açıb



İsveçrə prokurorluğu Beynəlxalq Futbol Federasiyasının (FİFA) prezidenti Yozef Blatterə qarşı cinayət işi açıb. Bu barədə Reuters agentliyi məlumat yayıb.

Yozef Blatter rəhbərlik etdiyi təşkilatın mənafeyinə zidd bir sıra maliyyə əməliyyatlarında, o cümlədən UEFA-nın rəhbəri Mişel Platiniyə FİFA-nın vəsaitindən qanunsuz olaraq iki milyon İsveçrə frankı ödəməkdə şübhəli bilinir.

Cümə günü Y.Blatterin İsveçrə prokurorluğu tərəfindən dindirildiyi və FİFA prezidentinin ofisində axtarış aparıldığı bildirilir.

### Gürcüstanda Rusiya ilə diplomatik əlaqələrin bərpasını istəyən vətəndaşlar aksiya keçiriblər



Tbilisidə Prezident Administrasiyanın qarşısında siyasi aksiya keçirilib. "İkinci İrakli Cəmiyyəti" qeyri-hökumət təşkilatının təşkil etdiyi aksiyanın iştirakçıları Rusiya ilə diplomatik əlaqələrin bərpa olunmasını tələb ediblər.

Aksiya iştirakçıları Prezident Georgi Merqvelaşvilini gürcü-rus münasibətlərini nizamlanması istiqamətində danışıqlar aparmaq üçün Moskvaya səfər etməyə dəvət ediblər.

Mitinqdə, həmçinin, Gürcüstanın hərbi bloklarda iştirakı və ölkə ərazisində başqa hərbi blokların bazalarının yerləşdirilməsi ilə bağlı etiraz şüarları da səslənib.

**AZƏRTAC-ın materialları əsasında**

